***Oqtay Rza***

# *Minaxanım*

***"Sarı gəlin" kitabının müəllifini dönə-dönə alqışlayıram***

Gah kövrələn qərib uşaq, gah uluyam,
Söz bağında gəzə-gəzə duyğuluyam,
Mən də hikmət dünyasının vurğunuyam
Professor Minaxanım Təhləlinin!



Şair, danış təbiəti sevməyindən,
Yaz gələndə laləli don geyməyindən,
"Türkün özü, türkün sözü" deməyindən
Professor Minaxanım Təhləlinin!

Heyran oldum efirdəki söhbətinə,
Layiq imiş milyonların rəğbətinə;
Fəxri ad da rəvac versin söhbətinə
Professor Minaxanım Təhləlinin!

Xoşladığı ilk şeir "Yay səhəri"dir,
"Azərbaycan..." özünün şah əsəridir;
Kəlamları dilimizin əzbəridir
Professor Minaxanım Təhləlinin!

Borçalının, Dərbəndin də sevimlisi
Keçir təhsil ocağında Vətən dərsi!
"Bakı-Təbriz" qatarından gələr səsi
Professor Minaxanım Təhləlinin!

ədalət.-2017.-20 aprel.-S.4.